**<u>Avropa İnsan Hüquqları Konvensiyası Sistemi</u>**

**<u>T E S T</u>**

1. **<u>Konvensiya və onun Protokolları aşağıda qeyd olunan hansı hüququ(ları) müdafiə etmir?</u>**

a. mənzil və azadlıq hüququnu;
b. borca görə azadlıqdan məhrum edilməmə hüququ;
c. sərbəst hərəkət etmək və özünə yaşayış yeri seçmək hüququ;
d. əcnəbi şəxslərin deportasiya olunmamaq hüququnu;

2. **<u>Konvensiyada təsbit olunan mütləq hüquqlar hansılardır?</u>**

a. 2, 5, 14;
b. 3, 4 (1), 7 (2), 6 saylı protokol;
c. 2, 3, 4, 5.

3. **<u>Avropa İnsan Hüquqları Konvensiyanın ratifikasiya edilməsi dövlətlər üçün Avropa Şurasına üzv olmanın ilkin şərtidir.</u>**

a. doğrudur;
b. yalnışdır.

4. **<u>Avropa İnsan Hüquqları Konvensiyasının strukturu imzalanmağa açıldığı dövrdən bugünədək dəyişilməz qalmışdır.</u>**

a. doğru;
b. yalnış.

5. **<u>Konvensiyanın "canlı alət" adlandırılması nə deməkdir?</u>**

   a. Konvensiya "bugünün şərtlərinə" uyğun olaraq təfsir edilməlidir;
   b. Konvensiyanın mətni "dinamik" və "inkişaf edən" şəkildə təfsir edilməlidir;
   c. yuxarıda qeyd olunanların hər ikisi.

6. **<u>AİHM qərarlarının icrası üzrə "fərdi xarakterli tədbirlər" və "ümumi xarakterli tədbirlər" haqqında qeyd olunanlardan hansı doğrudur?</u>**

a. "Fərdi xarakterli tədbirlər" özündə fərdin pozulmuş hüququnu və ya pozulmuş hüququn təsirlərinin aradan qaldırılmasına yönələn konkret addımları ehtiva edir; "Ümumi xarakterli tədbirlər" isə Avropa Məhkəməsi qərarında aşkar olunan pozuntunun gələcəkdə təkrarlanmaması üçün qanunvericiliyin, siyasətin, məhkəmə təcrübəsinin uyğunlaşdırılması və təkmilləşdirilməsi deməkdir.

b. “Fərdi xarakterli tədbirlər” fərdin Konvensiya ilə təminat altına alınan hüququnun geri dönülməz pozulmasına səbəb olacaq qaçılmaz riskin öncədən qarşısının alınması üçün təcili olan tədbirlərdir; “Ümumi xarakterli tədbirlər” ərizəçiyə vurulan zərərin əvəzində müvafiq kompensasiya verilməsini müəyyən edən tədbirlərdir;
c. Yuxarıda qeyd olunanlardan heç biri.

**7. <u>Aşağıdakılardan hansı Avropa Məhkəməsinə yazdığınız ərizəni etibarsız edərdi?</u>**

a. Hüquqşünas və yaxud yaxın dost tərəfindən təmsil olunma;
b. İşin faktiki hallarının üç səhifədən çox olması;
c. Konvensiyanın yalnış maddələrinə istinad;
d. Anonim olan;
e. Təşkilatın adı əvəzinə onun adında olan sözlərin baş hərflərinin qeyd olunması.

**8. <u>Elə bil hal yoxdur ki, Avropa Məhkəməsi “ölkə daxili müdafiə vasitələrindən” istifadə etməməni qəbuledilən hesab etsin.</u>**
a. doğrudur;
b. yalnışdır.

**9. <u>Ərizəçinin şikayəti Avropa Məhkəməsi tərəfindən qəbuledilməz elan edilmişdir. Buna səbəb şikayət olunan ölkənin pozulduğu istinad edilən hüququn təsbit olunduğu protokolu ratifikasiya etməməsi olmuşdur. Məhkəmə burada hansı uyğunsuzluq halını xatırlamışdır?</u>**
a. Ratione Loci;
b. Ratione Personae;
c. Ratione Temporis;
d. Ratione Materiae.

**10. <u>Məhkəməyə müraciətə dair altı aylıq müddətin son günü bazar günü və ya ictimai bayram günləri ilə üst-üstə düşdüyü halda belə bu altı ayın son günündə bitir.</u>**
a. doğrudur;
b. yalnışdır.

**11. <u>Avropa Məhkəməsinə ərizənizi göndərə bilərsiniz:</u>**
a. poçt vasitəsi ilə;
b. faks vasitəsi ilə;
c. elektron poçt vasitəsi ilə;
d. hamısı ilə.

12. **Əsaslandırılmamış və ya beynəlxalq nəzarət qurumunun baxmalı olduğu qəbildən olmayan az əhəmiyyətli və təkrarlanan şikayətlərMəhkəməyə müraciət qaydalarından sui-istifadə kimi qiymətləndirilə bilər.**
   a. doğru;
   b. yalnış.

13. **Ərizə formasında ərizəçinin təvəllüdü və ünvanı yazılmadığı halda, ərizə Məhkəmə tərəfindən rədd edilə bilər.**
   a. doğru;
   b. yalnış.

14. **Məhkəməyə təqdim etdiyini ərizə formasınaişiniz barədə daha ətraflı məlumatı ərizə formasına əlavə şəklində A4 formatda olmalıdır.**
   a. doğru;
   b. yalnış.

15. **Məhkəməyə təqdim edəcəyiniz ərizənizə əlavə ətraflı məlumat 30 səhifədən çox olmamalıdır.**
   a. doğru;
   b. yalnış.

16. **Məhkəməyə ünvanladığınız ərizələri istifadə etdiyiniz dildə tərtib edə bilərsiniz. Ancaq icraatın sonrakı mərhələlərində yazışmalar ingilis və ya fransız dilində aparılmalıdır.**
   a. doğru;
   b. yalnış.

17. **Qaydalara görə ərizəçinin Məhkəmədə təmsil edən "hüquqşünas" və ya "hüquqşünas olmayan" nümayəndələr arasında heç bir fərq qoyulmur.**
   a. doğru;
   b. yalnış.

18. **15 saylı protokol 2014-cü ilin 1 yanvar tarixindən qüvvəyə minib.**

a. doğru
b. yalnış

19. **12 saylı protokol ayrıseçkiliyi hansı formada qadağan edir?**

a. Konvensiyada təsbit olunan hüquqlardan istifadəyə münasibətdə ayrıseçkiliyi qadağan edir;
b. Protokolu ratifikasiya edən ölkənin ancaq daxili qanunvericiliyində fərdlərə tanınan bütün hüquqlara münasibətdə ayrıseçkiliyi qadağan edir;
c. Qanunla nəzərdə tutulmuş istənilən hüquqdan istifadəyə münasibətdə ayrıseçkiliyi ümumi şəkildə qadağan edir.

20. **<u>Bütün hallarda, o cümlədənmüharibə dövründə və ya qaçılmaz müharibə təhdidi zamanı törədilmiş cinayətlərə görə ölüm cəzasınınləğv edilməsinə dair 13 saylı protokol haqqında deyilənlərdən hansı doğrudur?</u>**

a. 13 saylı protokol Rusiya, Ermənistan və Azərbaycan istisna olmaqla Konvensiyanı ratifikasiya etmiş ölkələr tərəfindən ratifikasiya edilib;
b. 13 saylı protokol Konvensiyanı ratifikasiya etmiş bütün ölkələr tərəfindən ratifikasiya edilib;
c. 13 saylı protokol Rusiya istisna olmaqla Konvensiyanı ratifikasiya etmiş ölkələr tərəfindən ratifikasiya edilib.

21. **<u>14 saylı protokol yeni qəbuledilənlik meyarlarını, təkrar və açıq aşkar əsassız şikayətlərə yanaşma qaydalarını müəyyən edir:</u>**

a. doğru;
b. yalnış.

22. **<u>Avropa Şurası Nazirlər Komitəsi hesab edərsə ki, Razılığa gələn Yüksək Tərəf özünün tərəf olduğu məhkəmə prosesinin qəti qərarını yerinə yetirməkdən boyun qaçırır, o zaman o, həmin Tərəfə rəsmi xəbərdarlıq göndərdikdən sonra və Komitədə iştirak etmək hüququ olan nümayəndələrin üçdə iki səs çoxluğu ilə qəbul edilmiş qərarla, Tərəfin üzərinə götürdüyü öhdəliyi yerinə yetirib-yetirməməsi məsələsini aydınlaşdırmaq üçün işi Məhkəməyə göndərə bilər.</u>** Nazirlər Komitəsinə verilən bu yeni səlahiyyət hansı protokolda öz əksini tapıb?

a. 15 saylı protokol;
b. 14 saylı protokol.

23. **<u>Konvensiyaya əlavə hansı protokol Avropa Məhkəməsinə şikayət müddətini 6 altaydan 4 aya endirilməsini müəyyən edir?</u>**

a. 15 saylı protokol;
b. 14 saylı protokol;
c. 16 saylı protokol;

24. **<u>Tək hakim AİHM presedent hüququna uyğun olan sadə işlər üzrə işin mahiyyəti ilə bağlı yekun qətnamə qəbul edə bilər.</u>**

a. doğru;
b. yalnış.

*Hazırladı: Emin Abbasov*